

■ Sərvaz Hüseynoğlu



# Zamanın yel olub keçdiyi yerdə

Görkəmli Amerika yazıçısı Con Steynbekin ədəbi qəhrəmanlarının dilindən yadımda qalan bir dialoq var:

- Biz rəngbərəng dovşanlar tapırıq, Corc...

- Əlbəttə, qırmızı, yaşıl, mavi!

Çox adi, sadə bir mükalimədi. Ancaq bu adi, sadə mükalimədə ruhu, düşüncəni isti duyğuya qərq edən bir üslub, romantika var. Və hər dəfə Xuraman Vəfanın şeirlər kitabını oxuduqca özümü büsbütün bu sadə dialoqun ovqatına köklənmiş görürəm; əlbəttə, predmetlər tamamilə fərqlidi. Ancaq hər yeni şeirlə tanışlıq hissi də axtarış ehtiyacından, axtarmaq həvəsindən başlayır. Tapdıqların, əldə edə bildiklərin isə ilk növbədə çoxçalarlılığı, rəngbərəngliyi ilə maraqlıdı; Xuraman Vəfanın poetik dünyası kimi... İlk növbədə onun poetik dünyasının əlvanlığı cəlbedicidi. Gözəllik və həyatın qoşa qanad kimi tərənnüm olunduğu X.Vəfa poeziyası ilk növbədə inam, etibar, ruhdaşlıq dünyasının yansıtdığı könül pıçıltıları kimi qəbul olunur. Onun təsvirində dünya ilk növbədə sevgi, ilham kimi müqəddəs dəyərlərin məcmusu qarşılığında varlığını sübut edən bir aləmdi. Və bu aləmdə Xuraman Vəfa bir söz adamı olaraq "ismi-pünhan"ına xitabən təkcə bu misranı yazsaydı ki, "məni hansı adla itirəcəksən?" - yenə də sənət aləminin sakini olaraq qalacaqdı.

Min-min şeirin içindən Xuraman Vəfanın bu zərif misraları oxucu diqqətindən kənarda qalmayacaqdı ki:

*Qatıb göz yaşını bulaq suyuna*
*Gizlət qəhərini, qoy bilinməsin.*

Min-min şeir misraları içində əlbəəl bilinəcəkdi ki, "Qoxla bənövşəni, dər bənövşəni, ruhunun üstünə sər bənövşəni" misraları məhz Xuraman xanımın qələmindən çıxıb. Onundu. Sadə, oxunaqlı və yaddaqalandı. Bəxtinə bənövşə qisməti düşənlərin, bənövşə ömrü yaşayanların taleyi, qisməti və yazısı belədi. Xuraman Vəfa ətrafında yaşananlara diqqətlidi, Yerə, Göyə, Tanrıya hədsiz sayğıyla yanaşan bir qələm adamıdı və adi kol dibində bitən gülü də ömrünün-gününün bir parçası, xəyal qırıqlığına uğramış ilk eşqinin rəmzi kimi qəbul edir. Onun şeirlərimin səmimiyyəti bu dəyərlərdən qaynaqlanır. Şeirinin-sözünün bir əsas səmti ağız ədəbiyyatımızdan, qoşma və gəraylı havasından, ənənəsindən gəlir. "Məni elə qoxla, tül inciməsin" deyimiylə bu qənaətimizi təsdiqləyir Xuraman Vəfa. Dəruni bir məntiqlə, dünyagörmüşlüklə yazır ki:

*Dost demə hər yetən üzə gülənə,*
*Düşməndən halını sora bilməzsən.*

"Əgər sevirsənsə gəl qoru məni,
Yolumdan yol ötən gəlib keçməsin" fikri bu dünyagörmüşlükdən və ilk növbədə ərkdən gəlir X.Vəfa poeziyasına.

*Vaxt, zaman yel kimi adlayıb gedir,*
*Səni bu görüşə yubadan nədi?*

Bu səpkili çoxsaylı sualların cavabı var Xuraman xanımın şeirlərində. Bu cavabların sevinc, toxtaqlıq, bəxtəvərlik gətirəni də var, həsrət, qübar, sevgidən qaynaqlanan umu-küsü, məlal tərəfi də.

Xuramanın şeirlərində cəfakeş, hər dərdi-məlalı eşqi naminə ürəkdən nuş edən bitkin bir aşiq obrazı var. Bu obraz haradasa hər bir oxucunun prototipi kimidi. Bu obraz haradasa "adımla yanaşı sənin adın var" meyarına, əxlaqına sığınıb ömür edir. Hər kəsin könül evində yaşayır. Və xəyali bir sevginin yolunda dönüb-dönüb qurban kəsilməyə hazır olmağıyla oxucuya doğmadan-doğma olur. Xuramanın ədəbi qəhrəmanı hər bir halıyla öz könül həmdəminə güvənir, ona tapınır və böyük fəxarətlə "yad üzlərə yaddı qəlbim" şükranlığı yaşayır.

Xuramanın şeir dünyası "saxlaya biləydim ötən zamanı" istəyinə, amacına hesablanıb; yəni saxlaya bilsəydim ötən zamanı bütün varlığımı qurban verərdim; bütün qarasevdalıların əvəzinə yaşayardım; dünyanın gedişini sevən ürəklərin istəyincə yoluna qoyardım... Əslində, bütün bunlar kainatı doğma evi, hər bir bəşər övladını özünə dost-sirdaş bilənlərin dost ürəyi, dost nəzəri kimidi; "Sən mənim arzuladığım adamsan, canım-ciyərimsən, istəyimsən, doğmamsan" yaxşılığı ilə könül açır hər bir oxucuya. Tənə etmir, yamanlamır. Onun ədəbi qəhrəmanı

*Sıxdın əllərimi, isitdin məni,*
*Qəlbim də beləcə isinəydi kaş -*

həsrətlisidi. Xuraman "Nigaranam" şerini bu duyğularla baş-başa yazıb, "Sevənlər bilər" adlı kitabına daxil etdiyi şeirləri bu ovqatla arayaərsəyə gətirib. Qələmə aldığı şeirlər onun ömründən-günündən, baxışlarından, yaşantılarından üzülüb qalan izlər kimidi; necə ki, ağacdan yarpaq düşür, bax elə, necə ki, lalənin bağrına xal düşür, o cür, o biçimdə. Xuramann əksr şeir kitablarının redaktoru, ön söz müəllifi şair Oqtay Rzanın qeyd etdiyi kimi, X.Vəfanın vüsal, həsrət, müqəddəs kədər, torpaq sevgisi ilə dolu misralarında həm səmimiyyət var, həm də doyulmaz bir təbiilik. Adam onun misralarına qoşulub qoruya bilir özünün bulaq paklığını, gül qoxusunu. Doğmadan doğma bildiklərinə deyə bilirsən ki, "əlimlə qəm evi tikdirmə mənə..."

Oxucu ürəyində yeri olanların pünhan hücrələri kimidi Xuramanın şeirləri; iç-içə, xana-xana, göz-göz açılır. Bu hücrədə oxucu özünü həmdərd tapmasıyla, düşüncə oxşarlığıyla bəxtiyar sayır. Bilir ki, tək deyil, onun kimi qəlb qırıqlıqlarına uğrayan varmış, onun çəkdiklərini çəkən, onunla fikir, düşüncə ortaqlı olan varmış. Əslində, poeziyanın ən başlıca missiyası, amacı, qayəsi budu; oxucuya həyan olmaq, onu sınmağa qoymamaq, həyatı anlamaqda kömək etmək. Xuramanın şeirləri çox böyük üzüntülər, dönümlər yaşamış bir dərddaşın tərcümeyi-halı kimi oxunur və oxunduqca da bu tərcümeyi-hal hər kəsə doğmalaşır.